# Suraxanı rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər

**Suraxanı yaxın vaxtlaradək Bakının ucqar rayonlarından biri sayılırdı. Qiymətlər paytaxtın mərkəzinə nisbətən xeyli ucuz olsa da, adamlar oradan torpaq, ev almağa tərəddüd edirdilər. Bu, səbəbsiz deyildi. Suraxanı qəsəbəsindən Bakının mərkəzinə gəlmək azı bir saat çəkirdi. İndi yola sərf olunan vaxt yarıbayarı azalıb. Qəsəbə Heydər Əliyev Beynəlxalq Aeroportuna gedən yolun üzərində yerləşir. Bu geniş, sürətli yol sakinlərə də rahatlıq bəxş edir, onların işini asanlaşdırır. Qeydlərimizə yoldan başlamağımız təsadüfü deyil, çünki yol abadlığın, sosial-iqtisadi tərəqqinin əsas şərtlərindən biridir.**

## Söhbətə körpü

Suraxanı rayonunun ərazisi 122 kvadratkilometr, əhalisi 212,2 min nəfərdir (2012-ci ilin siyahıyaalmasına görə). Hər kvadratkilometrə 1700 nəfərdən bir qədər çox əhali düşür. Şəhər, xüsusən, paytaxt rayonu üçün yetərincə geniş ərazi sayıla bilər və bu, müqayisədə daha qabarıq nəzərə çarpır. Belə ki, həmin sayda əhali paytaxtın Nəsimi rayonunda cəmi 10 kvadratkilometr ərazidə yaşayır. Geniş ərazi də öz növbəsində inkişaf baxımından daha böyük perspektivlər vəd edir.



Bununla belə, məsələnin digər tərəfini də nəzərdən qaçırmaq olmaz. Şəhər mərkəzinə nisbətən, ucqarların problemləri də çox olur. Necə deyərlər, gözdən uzaq olduğu üçün sosial problemlər üst-üstə qalaqlanır. Xüsusən yaşayış məntəqələrinin bir-birindən uzaqda yerləşməsi yol, su, qaz, işıq təsərrüfatında çətinliklər yaradır. Suraxanı rayonunun tərkibinə 6 qəsəbə daxildir: Bülbülə, Əmircan, Qaraçuxur, Yeni Suraxanı, Hövsan və Zığ. Rayona və bu qəsəbələrə az-çox bələd olanlar burada hələ sovet dövründən saysız-hesabsız problemlər yığılıb qaldığını təsdiqləyə bilərlər.

Son illər isə mənzərə göz önündə dəyişməyə başlayıb: qəsəbələr abadlaşır, yollar təmir olunur, su, qaz, elektrik təsərrüfatı yenilənir. Vaxtilə bu yerlərə müvəqqəti yaşamaq məqsədi ilə gələnlər fikirlərini dəyişir, yöndəmsiz evlərin yerində yaraşıqlı imarətlər ucaldılır.

Yeniliklər sırasında Suraxanı Günəş Elektrik Stansiyasını xüsusi qeyd etməyi lazım bilirik. 2014-cü ildə işə salınan stansiya 6 hektar sahəni əhatə edir (ərazinin genişliyi bax belə yerdə kara gəlir). Burada quraşdırılan 8 min günəş paneli gündə təxminən 12 min kilovatsaat elektrik enerjisi istehsal etməyə imkan verir. Gələcəkdə daha 4 min panel quraşdırılması nəzərdə tutulur və stansiya layihə gücünə çatdırıldıqda illik elektrik enerjisi istehsalı 4 milyon kilovat təşkil edəcək. Bu isə qənaət olunmuş 1,5 milyon kubmetr qaz və sağlam ətraf mühit deməkdir.

## Suraxanının inkişafı sakinlərin gözü ilə

Rayonun simasının necə dəyişdiyini, inkişafını sakinlər hamıdan yaxşı görə və qiymətləndirə bilərlər. Onlardan biri ilə həmsöhbət olduq. Əslən Ermənistandan olan Baba Məmmədov 1984-cü ildən Əmircan qəsəbəsində yaşayır. Uzun illər qəsəbədəki internat məktəbində və Hövsan tam orta məktəbində müəllim işləyib. Hazırda pensiyada olan Baba müəllim deyir ki, qəsəbə onun gözləri qarşısında dəyişib, müasirləşib. Xüsusən son illər bir çox sosial problemlər həllini tapır, yollar, küçələr abadlaşdırılır. Sakinlərin su, qaz, işıq məsələsində qarşılaşdığı çətinliklər aradan qalxır. Vaxtilə işlədiyi məktəb binaları əsaslı təmir olunub.

Sözə qüvvət: "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində Suraxanı rayonunda da abadlıq-quruculuq işləri sürətlənib, əhaliyə göstərilən sosial xidmətlərin həcminin və keyfiyyətinin yüksəlməsinə şərait yaranıb. Yol təsərrüfatı, elektrik enerjisi, qaz, istilik, su təchizatı, kanalizasiya xidməti və digər sosial infrastruktur sahələrində bir sıra layihələr həyata keçirilib.

Ötən ilin 9 ayı ərzində Suraxanı rayonunda sənaye məhsulunun istehsalı 198,1 milyon manat, tikinti-quraşdırma işləri 34,2 milyon manat, nəqliyyat xidmətləri 3,8 milyon manat, əsas kapitala yönəldilən investisiyalar 30,2 milyon manat, kənd təsərrüfatı 2,2 milyon manat, pərakəndə ticarət dövriyyəsi 238,8 milyon manat, orta aylıq əmək haqqı 546,4 manat təşkil edib. Əhaliyə 184,3 milyon manat məbləğində pullu xidmətlər göstərilib, 2355 yeni iş yeri açılıb.

Dövlət Proqramında Suraxanı rayonu üzrə nəzərdə tutulan 54 tədbirin 4-ü icra olunub, 20-sinin icrasına başlanılıb. Qaraçuxur qəsəbəsində 146 saylı orta məktəb üçün 25 əlavə sinif otağından ibarət tədris korpusu, idman və akt zalları tikiləcək istifadəyə verilib, Əmircan qəsəbəsində 5 saylı və Yeni Günəşli yaşayış sahəsində 262 saylı uşaq bağçaları əsaslı təmir olunub.

Qaraçuxur qəsəbəsindəki beş küçədə, həmçinin Yeni Günəşli yaşayış sahəsində küçələrin kənarında yerləşən obyekt və binaların fasadları müasir üslubda yenidən qurulub, hasarlar rənglənib, ətraf ərazilər tullantılardan təmizlənib.

Əhalinin sosial problemlərinin həllinə yönəlmiş tədbirlər də eyni ahənglə davam etdirilir. Qış mövsümündə yarana biləcək çətinlikləri vaxtlı-vaxtında dərhal aradan qaldırmaq üçün rayon icra hakimiyyəti başçısının sərəncamı ilə operativ Qərargah yaradılıb, müvafiq tədbirlər planı təsdiq edilib. Bu plana əsasən, məhəllədaxili və binadaxili istilik sistemləri yenidən qurulur.

## Avropa Oyunlarının Suraxanıda qoyduğu izlər

"Bakı-2015" birinci Avropa Oyunları Azərbaycanın həyatında ilin ən önəmli hadisələrindən biri olub. Bu tarixi hadisədən Suraxanı rayonuna da özünəməxsus pay düşüb. Oyunların məşəli öz odunu rayonun ərazisində yerləşən "Atəşgah Məbədi"ndən götürüb. Bu, həm böyük şərəf, həm də məsuliyyət demək idi. Məşəlin yandırılması mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki iştirak edirdilər.

Təbii ki, belə mühüm və möhtəşəm tədbir ciddi hazırlıq tələb edirdi. Başda rayon icra hakimiyyəti olmaqla, müvafiq təşkilatlar bu işin öhdəsindən bacarıqla gəldilər. Beş küçə boyunca yaşayış və qeyri-yaşayış obyektlərinin fasadları və hasarları aqlay daşları ilə üzləndi, qaz, elektrik, telefon və digər yerüstü kommunikasiya xətləri yerin altına salındı. Bundan əlavə, 27,7 min kvadratmetr sahəyə asfalt döşəndi, 5042 paqonmetr bordur düzüldü, 3252 kvadratmetr səki qaydaya salındı. Küçələrin işıqlandırılması üçün 2707 metr elektrik kabeli çəkildi, işıq dirəkləri və çılçıraqlar quraşdırıldı. Ümumilikdə aqlay daşından 5,1 min kvadratmetr üzlük işləri, 3,4 min kvadratmetr hörgü və 10,7 min kvadratmetr suvaq işləri görüldü, bir sıra binaların dam örtükləri yeniləndi.



Perspektivdə abadlıq işlərinin davam etdirilməsi, hər bir qəsəbəyə, məhəllə və küçəyə müasir görkəm verilməsi nəzərdə tutulur.

Yeri gəlmişkən, Suraxanı idmançıları da "Bakı-2015" ilk Avropa Oyunlarına layiqli töhfələr veriblər. Karate idman növü üzrə Ayxan Mamayev qızıl medal, sambo üzrə Vasif Səfərbəyov gümüş medal, qılıncoynatma idman növü üzrə Sevil və Sevinc Bunyatova bacıları müvafiq olaraq gümüş və bürünc medal qazanıblar.

## Suraxanı yaşıllıqlar və parklar məkanına çevrilir

Suraxanı rayonunun vaxtilə yaşıllıq baxımından çox kasad olan qəsəbələrdə, yol kənarlarında yenicə əkilmiş tinglər görünməyə başlayıb. Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən ilin noyabrında başlayan "Ümumrespublika yaşıllaşdırma marafonu" çərçivəsində rayonun idarə və müəssisələrinin iştirakı ilə 11 ümumrayon iməcliyi keçirilərək 7,4 mindən çox ağac əkilib.

Əmircan qəsəbəsindəki Tofiq Bayram adına park əsaslı təmir olunaraq yenidən qurulub. Bülbülə qəsəbəsində 24 saylı poliklinikanın qarşısında yeni park yaradılıb. Rayon üzrə ümumilikdə 12 min kvadratmetr sahədə yaşıllıq salınıb.

Dövlət Proqramına əsasən Bakı şəhərində mövcud göllərin reabilitasiyasına başlanılıb. Onlardan ikisi - Bülbülə və Zığ gölləri Suraxanı rayonu ərazisindədir. Hazırda həmin göllərin təmizlənməsinə, ətrafların abadlaşdırılmasına başlanılıb.

Eyni zamanda, lay suları və neftlə çirklənən 8,17 hektar torpaq sahəsi təmizlənərək texniki rekultivasiya olunub. Ümumi sahəsi 5 hektar olan 24 gölməçə qurudulub, 30 neft quyusunun işçi meydançası və quyuətrafı sahələri neft tullantılarından təmizlənib, kollektorlar təmir edilib.

## Rayonun sosial həyatı və vətəndaş məmnunluğu

Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mərkəzində insan amili dayanır. Odur ki, Suraxanıda da əhalinin sosial müdafiəsinin gücləndirilməsi prioritet məsələlər sırasındadır. Rayon Əmək və Əhalinin Sosial Müdafiəsi Mərkəzində 2015-ci ilin 9 ayı ərzində 7496 nəfərə 5 milyon manata yaxın sosial müavinət, 2173 ailəyə 3 milyon manatdan çox ünvanlı sosial yardım ödənilib, 218 nəfər tənha və əlil insana evində sosial xidmət göstərilib, 58 nəfər imtiyazlı vətəndaş reabilitasiya mərkəzlərinə və sanatoriyalara göndərilib.

Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi tərəfindən 27748 təqaüdçüyə xidmət göstərilib, bir nəfərə düşən orta aylıq təqaüdün məbləği 194,5 manat təşkil edib. Rayon Məşğulluq Mərkəzinə müraciət edən 992 nəfərdən 476 nəfəri işlə təmin olunub, 71 nəfərə işsiz statusu verilib, 44 nəfər peşə hazırlığı kurslarına cəlb olunub.

Vətəndaşların pulsuz tibbi müayinədən keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı Suraxanı rayonunda da uğurla icra edilib: əhalinin 67,4 faizdən çoxu tibbi müayinədən keçib, 6751 nəfərə ambulator müalicə, 570 nəfər isə stasionar müalicə təyin edilib.

Müasir Suraxanının diqqət çəkən məkanlarından biri Heydər Əliyev Mərkəzidir. Burada müasir informasiya texnologiyalarının tətbiq olunduğu kitabxana, konfrans salonu, təlim kursları fəaliyyət göstərir. Rayon İcra Hakimiyyəti sakinlərin bu möhtəşəm Mərkəzin imkanlarından daha geniş istifadə etməsini diqqət mərkəzində saxlayır. Bu günədək Heydər Əliyev Mərkəzinə 56 mindən çox yerli və xarici ziyarətçi baş çəkib. Mərkəzin Elektron kitabxanasının xidmətindən 15 minə yaxın istifadəçi faydalanıb.

Rayon rəhbərliyi vətəndaş məmnunluğunun təmin olunması, müraciətlərə baxılması ilə bağlı mütəmadi iş aparır. Bu məqsədlə 2015-ci ildə yenilənən internet saytı, elektron poçt, "Qaynar xətt" telefonu kimi mütərəqqi əlaqə və informasiya vasitələrindən, yerlərdə quraşdırılan səyyar poçt qutularından geniş istifadə edilir. Ötən ilin 9 ayında elektron poçt ünvanına daxil olan 205 elektron məktub cavablandırılıb. Həmin müddətdə rayon icra hakimiyyətinin başçısı tərəfindən 759 nəfər vətəndaş qəbul edilib. Eləcə də ümumilikdə 1715 sakinin iştirakı ilə keçirilən 27 səyyar görüş-qəbulda qaldırılan məsələlərlə bağlı aidiyyəti idarə və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilib və onların icrası nəzarətdə saxlanılır.

Tətbiq edilən mütərəqqi metodlardan biri də "Elektron icraçı" avtomatlaşdırılmış idarəetmə sistemi proqramıdır.

Suraxanı rayonunun sosial-iqtisadi inkişafını şərtləndirən mühüm amillərdən biri müasir idarəçilik üslubunda işləyən, yeniliyə meyilli çevik komandanın formalaşmasıdır. Bunun sayəsində rayon yeni inkişaf mərhələsinə qədəm qoyub.

## Suraxanıda "Yapon bağı"

Suraxanı rayonunda diqqət çəkən daha bir məqam beynəlxalq əlaqələrin genişlənməsidir. Latviyanın bəzi qurumları ilə qurulan əməkdaşlıq buna xarakterik misal ola bilər. Belə ki, 2013-cü ildə Suraxanı Rayon İcra Hakimiyyəti ilə Riqa şəhər Şurasının Şərqi İcra Direksiyası arasında əməkdaşlıq sazişi imzalanıb. Sazişə əsasən təcrübə mübadiləsi və yeni layihələrin müzakirəsi məqsədilə Latviyanın Riqa şəhər Şurası sədrinin müavini Andris Ameriksin başçılıq etdiyi nümayəndə heyəti Bakıda səfərdə olub. 2012-ci ildə isə Latviyanın Yekabpils bələdiyyəsi ilə Qaraçuxur bələdiyyəsi arasında imzalanmış əməkdaşlıq haqqında protokoluna əsasən Latviyanın Zemqale regionunun, o cümlədən Yekabpils şəhərinin yerli özünüidarəetmə orqanları rəhbərlərindən ibarət nümayəndə heyəti Suraxanı rayonuna işgüzar səfər edib.

Suraxanı rayonunun uzaq Yaponiya ilə də əməkdaşlıq əlaqələri yaranıb. "KOSUQİ" şirkətinin rəhbəri Saki Kosuqinin başçılıq etdiyi nümayəndə heyəti Suraxanı Rayon İcra Hakimiyyətində görüş keçirib. Bundan əvvəl isə rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan nümayəndə heyətinin tərkibində Yaponiyaya səfər edib, şirkətin yaşıllıqlar salınması sahəsindəki iş təcrübəsi ilə tanış olub. Qarşılıqlı səfərlərin və əməkdaşlığın nəticəsi olaraq bir müddət əvvəl Suraxanıda "Yapon bağı" salınıb.

Davamlı sosial-iqtisadi inkişaf, mütərəqqi idarəetmə metodları, vətəndaş məmnunluğu, Günəş Elektrik Stansiyası, "Yapon bağı"... Müşahidə olunan bu və digər proseslər, yeniliklər Suraxanı rayonunun perspektivləri barədə nikbin fikir yürütməyə əsas verir.

**Əsəd Məmmədov,**
AZƏRTAC-ın müxbiri

*Suraxanı Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim etmək üçün*